# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə "2710 19 210 1" və "2710 19 210 9" alt yarım-mövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2710 19 210 1 | reaktiv mühərriklər üçün TC-1 markalı yanacaq | 1 ton üçün 80,0 manat (31.12.2024-cü il tarixinədək – 1,0 manat) |
| 2710 19 210 9 | reaktiv mühərriklər üçün digər yanacaq | 1 ton üçün 80,0 manat (31.12.2024-cü il tarixinədək – 1,0 manat) |

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 31 yanvar 2024-cü il

№ 59